O‘ZBEKISTON RESPUBLIKASI TA’LIM VA ILM-FAN VAZIRLIGI

ALISHER NAVOIY NOMIDAGI TOSHKENT DAVLAT O‘ZBEK TILI VA ADABIYOTI UNIVERSITETI



“O‘ZBEK TILINING GLOBAL MAQOMI VA NUFUZINI OSHIRISH ISTIQBOLLARI”

MAVZUSIDAGI XALQARO ILMIY-AMALIY KONFERENSIYA MATERIALLARI







2026-yil
16-oktabr

VII. XALQARO TA’LIM DASTURLARI VA O‘ZBEK TILI: IMKONIYAT VA ISTIQBOLLAR

AZƏRBAYCANDA ÖZBƏK DİLİNİN TƏDRİSİ: TƏCRÜBƏ VƏ PERSPEKTİVLƏR (BAKI SLAVYAN UNİVERSİTETİNİN TİMSALINDA)

TEACHING THE UZBEK LANGUAGE IN AZERBAIJAN: EXPERIENCE AND PROSPECTS (THE CASE OF BAKU SLAVIC UNIVERSITY)

DOI: 10.52773/tsuull.conf.2026.10.16/IAFP5098

Mirzəli Məleykə Azər qızı
Bakı Slavyan Universitetinin
Türk Dünyası Araşdırmalar Mərkəzinin direktoru
ORCID: 0000-0001-5379-9256
maleyka.mirzali@icloud.com

Annotation. *The article examines the organisation of Uzbek language teaching at Baku Slavic University (BSU), launched in September 2025 as part of the expanding academic cooperation between Azerbaijan and Uzbekistan. The institutional basis of the programme is analysed, primarily the Memorandum of Understanding between BSU and Alisher Navoi Tashkent State University of Uzbek Language and Literature, as well as cooperation with other higher education institutions of Uzbekistan. The structure and content of the courses "Speaking skills of the specialty language" and "Writing skills of the specialty language", taught within the Regional Studies (Central Asian countries) programme, are described, together with the teaching methods, materials and assessment system used to develop listening, speaking, reading and writing skills from A1 to B2 level. Particular attention is paid to the role of visiting lecturers from Uzbekistan, to student and staff mobility, and to a comparative approach based on the kinship of the two Turkic languages. The article concludes with proposals for the further development of Uzbek language teaching in Azerbaijan.*

Keywords: *Uzbek language, teaching Uzbek as a foreign language, Baku Slavic University, Alisher Navoi Tashkent State University of Uzbek Language and Literature, academic mobility, communicative approach, Azerbaijani–Uzbek cooperation.*

Giriş

Dilin beynəlxalq nüfuzu təkcə onun daşıyıcılarının sayı ilə deyil, həm də ölkə hüdudlarından kənarda öyrənilməsi və tədrisi ilə ölçülür. Xarici universitetlərdə müntəzəm tədris fənninə çevrilən dil beynəlxalq elmi-mədəni dövriyyəyə daxil olur. Buna görə də özbək dilinin xaricdə, ilk növbədə qardaş türk xalqlarının ölkələrində tədrisi onun qlobal mövqeyinin möhkəmlənməsinin mühüm şərtlərindən biridir.

Bu vəzifə Özbəkistanın dövlət dil siyasətində də öz əksini tapmışdır. Prezidentin 2020-ci il 21 oktyabr tarixli PF-6084 nömrəli Fərmanına uyğun hazırlanmış "2020-2030-cu illərdə özbək dilinin inkişafı və dil siyasətinin təkmilləşdirilməsi Konsepsiyası" özbək dilinin beynəlxalq nüfuzunun artırılmasını prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirir [PF-6084, 2020]. Bu siyasətin səmərəsi isə xarici universitetlərlə qurulan əməkdaşlıqdan və orada aparılan tədrisin keyfiyyətindən bilavasitə asılıdır.

Azərbaycan bu baxımdan xüsusilə əlverişli məkandır, çünki iki dil ortaq kökə malikdir. Türk dillərinin təsnifatında özbək dili qarluq, Azərbaycan dili isə oğuz qrupuna daxil edilir [Sayfullayeva və b., 2010: 10], hər ikisinin əsasında isə qədim türk dili dayanır [Abdushukurov, 2019: 1]. Qədim türk yazılı abidələrinə xas bir çox leksik vahid və qrammatik forma bu gün də özbək, Azərbaycan və digər türk dillərində yaşayır [Abdushukurov, 2019: 16]. Özbək leksikasının ən qədim qatını təşkil edən ümumtürk sözlərinin əksəriyyəti Azərbaycan dilində də qorunmuşdur: bosh – baş, tog‘ – dağ, til – dil və s. [Jamolxonov, 2005: 188]. Bundan əlavə, özbək dilinin üç ləhcəsindən biri oğuz ləhcəsidir [Jamolxonov, 2005: 14] ki, bu da iki dil arasında əlavə körpü yaradır.

Bu yaxınlıq azərbaycanlı tələbə üçün özbək dilini öyrənməyi asanlaşdırır, lakin eyni zamanda yaxın, amma fərqli formaların qarışdırılması kimi özünəməxsus metodik çətinliklər də yaradır.

Məqalənin məqsədi Bakı Slavyan Universitetində (BSU) 2025-ci ildən aparılan özbək dili tədrisinin institusional əsaslarını, məzmununu və metodlarını təhlil etmək, bu təcrübənin inkişaf perspektivlərini müəyyənləşdirməkdir.

1. Tədrisin institusional əsasları

BSU-da özbək dilinin tədrisi iki ölkə arasında genişlənən elm və təhsil əlaqələrinin nəticəsidir. Bu əlaqələrin əsas istiqamətlərindən biri BSU ilə Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti (TDO‘TAU) arasında imzalanmış Qarşılıqlı Anlaşma Memorandumudur [Memorandum,

2026]. Sənədi BSU-nun rektoru Anar Nağıyev və TDO‘TAU-nun rektoru Şuhrat Sirojiddinov imzalamışdır; o, beş il müddətinə qüvvədədir.

Memorandum əməkdaşlığın üç məqsədini müəyyən edir: tərəfdaş fakültə və institutların tədris və tədqiqat fəaliyyətinə marağı artırmaq, birgə tədqiqat təklifləri üzərində işləmək, müəllim, tələbə və əməkdaşların mübadiləsini təşviq etmək. Bu məqsədlər konkret sahələrdə reallaşdırılır: bakalavr, magistr və doktorantların qəbulu, simpozium, konfrans və qısamüddətli kursların təşkili, birgə tədqiqat və ömürboyu təhsil proqramları, innovativ tədris təcrübəsi və elmi-metodik nəşrlərin mübadiləsi. İcraya hər tərəfin təyin etdiyi koordinator nəzarət edir.

Özbək dilçiliyinin aparıcı mərkəzi ilə belə əməkdaşlıq BSU-ya müəllim hazırlığı, metodik təcrübə və elmi nəşrlər baxımından birbaşa çıxış imkanı verir. Memorandumun mübadilə müddəalarının ilk praktik nəticələrindən biri məqalə müəllifinin 2026-cı ilin 1 sentyabr – 30 dekabr tarixlərində özbək dilini təkmilləşdirmək üçün TDO‘TAU-ya ezam olunmasıdır [AZƏRTAC, 2026].

TDO‘TAU ilə əməkdaşlıq digər Özbəkistan universitetləri ilə qurulan əlaqələrlə tamamlanır. Tədrisin başlanmasına 2023-cü ildə Nizami adına Özbəkistan Milli Pedaqoji Universiteti ilə imzalanmış memorandum zəmin yaratmışdır: bu sənəd Azərbaycan və özbək dillərinin qarşılıqlı tədrisini nəzərdə tutur və onun əsasında 2025-ci ilin sentyabrından BSU-da özbək dili tədris olunur [AZƏRTAC, 2026]. Səmərqənd Dövlət Xarici Dillər Universiteti və Namanqan Dövlət Universiteti ilə isə Azərbaycan dilinin tədrisi üzrə əməkdaşlıq planlaşdırılır. Beləliklə, formalaşan model qarşılıqlıdır: özbək dili Azərbaycanda, Azərbaycan dili isə Özbəkistanda öyrənilir.

2. Tədrisin təşkili və məzmunu

Özbək dili BSU-nun Sosial elmlər və regionşünaslıq fakültəsində "Regionşünaslıq (Mərkəzi Asiya ölkələri üzrə)" ixtisası üzrə ixtisas dili kimi tədris olunur. İlk ildə ixtisasa 29 tələbə qəbul edilmişdisə [AZƏRTAC, 2026], 2026–2027-ci tədris ilində birinci kursda artıq 45 tələbə oxuyur. Hazırda özbək dilini 74 tələbə öyrənir; qəbulun bir il ərzində təxminən bir yarım dəfə artması bu dilə və Mərkəzi Asiya istiqamətinə marağın yüksəldiyini göstərir.

Tədris iki paralel fənn üzrə qurulmuşdur: "İxtisas dilinin nitq vərdişi" və "İxtisas dilinin yazı vərdişi". Birinci kursda bu fənlər I, ikinci kursda II və III səviyyədə keçirilir, proqram 3 semestrdə davam edir. Hər fənn məcburidir, 5 kredit həcmindədir və semestr ərzində 120 saat auditoriya məşğələsini (60 saat mühazirə, 60 saat laboratoriya), habelə 90 saat auditoriyadan kənar işi əhatə edir;

tədris dili özbək dilidir, yekun qiymətləndirmə imtahanla aparılır [Sillabus, 2026]. Laboratoriya məşğələləri Ümumavropa Dil Çərçivəsinin səviyyələrinə uyğun olaraq A1-dən B2-yə doğru pilləli qurulmuşdur [Council of Europe, 2020].

Fənlərin məzmunu da bu pilləliliyi əks etdirir. Birinci kursun nitq fənni linqvokulturoloji prinsipə əsaslanır: "Dil və millət. Özbək dilinin tarixi" mövzusundan başlayan proqram salamlaşma və tanışlıq, ailə və şəcərə, özbək məhəlləsi və evi, milli mətbəx, adət-ənənələr, milli geyim və sənətkarlıq, bayramlar, qədim şəhərlər və memarlıq abidələri kimi mövzular vasitəsilə dili mədəniyyətlə vəhdətdə öyrədir [Sillabus, 2026].

Yazı fənni isə dilin sistemini mərhələ-mərhələ açır. Birinci kursda tələbələr yazının tarixi, Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" və Əlişir Nəvainin "Mühakəmətül-lüğəteyn" əsərləri, latın qrafikalı özbək əlifbası, fonetika, orfoqrafiya, orfoepiya, leksikologiya, frazeologiya və leksikoqrafiya ilə tanış olurlar. Bu bölmələr Özbəkistan universitetlərində istifadə olunan "Hozirgi o‘zbek adabiy tili" dərsliyinin quruluşu ilə üst-üstə düşür [Jamolxonov, 2005: 3]. Latın əlifbası mövzusu iki xalqın ortaq tarixini də xatırladır: hələ 1922-ci ildə Azərbaycan türk yeni əlifba komitəsi latın qrafikalı türk əlifbası layihəsini Türküstan Maarif Xalq Komissarlığına göndərmişdi [Jamolxonov, 2005: 119].

İkinci kursda yazı fənni leksikologiya və morfologiyaya keçir: feilin zaman, şəxs-kəmiyyət, növ və şəkil kateqoriyaları, isimdə mənsubiyyət və hal, sifət, say, əvəzlik, zərf və köməkçi nitq hissələri öyrənilir. Bu mövzular da universitet dərsliklərində sistemli şəkildə şərh olunur [Sayfullayeva və b., 2010: 145–264]. Nitq fənni isə nitq mədəniyyəti və üslubiyyata — ədəbi dil normalarına, nitqin kommunikativ keyfiyyətlərinə və funksional üslublara həsr olunur. Bu fənndə "Qabusnamə"də natiqlik, Nəvainin natiqliyə dair görüşləri və "Azərbaycanlı yazarların əsərlərində düzgün nitq qurmağa dair görüşlər" mövzularının yer alması iki xalqın ortaq ədəbi-mədəni irsinə söykənən yanaşmanın göstəricisidir.

3. Tədris metodları, materiallar və dil bacarıqları

Tədrisin əsas prinsipi nitq fəaliyyətinin dörd növünün, yəni dinləyib anlama, danışma, oxu və yazının inteqrativ inkişafıdır. Sillabuslar bununla yanaşı pilləlilik, mədəniyyətlərarası yanaşma, aydın qiymətləndirmə meyarları və fərdi yanaşma prinsiplərini önə çəkir [Sillabus, 2026].

Bu prinsiplər metod seçimini də müəyyən edir. Danışma vərdişləri əsasən kommunikativ metodlardan dialoqlar, rollu oyunlar və real həyati situasiyalar vasitəsilə formalaşdırılır. Onu audiolinqval metod (tələffüz və intonasiya), tapşırığa əsaslanan təlim (müsahibə, layihə, təqdimat), başlanğıc mərhələdə

"fiziki reaksiya" metodu (TPR), immersiya və vizual metodlar tamamlayır; qrammatik-tərcümə metodu isə köməkçi rol oynayır [Sillabus, 2026]. Bu kombinasiya müasir dil didaktikasının tövsiyələrinə uyğundur [Richards, Rodgers, 2014; Nunan, 2004]. A1-A2 səviyyələrində şifahi nitqə və söz ehtiyatına, B1–B2 səviyyələrində isə mətnlə işə, monoloqa və yazılı tapşırıqlara üstünlük verilir.

Yazı vərdişləri hərfdən mətnə doğru beş mərhələdə inkişaf etdirilir: qrafika və imla əsasları, orfoqrafik vərdişlər, cümlə qurma, mətn yaratma (ərizə, elan, məktub, ifadə, hekayə) və yazılı nitq mədəniyyəti [Sillabus, 2026]. Bu mərhələlərdə müqayisəli metodun xüsusi yeri var. Qohum dillərin paralellərini, məsələn: tog‘ - dağ, til - dil kimi səs uyğunluqlarını şüurlu şəkildə tutuşdurmaq azərbaycanlı tələbənin öyrənməsini sürətləndirir və interferensiya xətalarının qarşısını alır.

Metodların səmərəsi isə tədris materiallarından asılıdır. Sillabuslarda əsas mənbələr kimi qrammatika, leksika, imla və durğu işarələrinə dair dərslik və metodik vəsaitlər, audio və video materiallar, lüğətlər, özbək ədəbiyyatından mətnlər, onlayn kurslar və mobil tətbiqlər göstərilir [Sillabus, 2026]. Xarici tələbələr üçün hazırlanmış dərsliklər, o cümlədən G. Rixsiyevanın "O‘zbek tili (xorijliklar uchun darslik)" kitabı [Rixsiyeva, 2023] bu sahədə mühüm metodik baza yaradır. Tədqiqatçılar autentik və adaptasiya olunmuş materialların tələbənin səviyyəsinə uyğun birgə istifadəsini tövsiyə edir [Asilova, 2023: 182–183], eyni zamanda özbək dilinin əcnəbilərə tədrisi metodikasının hələ formalaşma mərhələsində olduğunu qeyd edirlər [Asilova, 2023: 172–174]. Məhz buna görə BSU-da Azərbaycan auditoriyası üçün xüsusi tədris proqramı və dərs kitabı hazırlanmışdır; hazırda onlar nəşr mərhələsindədir.

Auditoriya işi müstəqil işlə davam etdirilir: fərdi tapşırıqlar, diktant və inşalar, elektron resurslarla iş, yazılı işlərin qarşılıqlı yoxlanılması. "Özbək dilinin qohum dillərlə müqayisəsi", "Türk xalqlarının yazılı abidələri" kimi müstəqil iş mövzuları isə tələbələrdə tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir.

Nəticələr cari, aralıq və yekun qiymətləndirmə ilə yoxlanılır. Danışma aydınlıq (30%), mövzuya uyğunluq (30%), lüğət ehtiyatı və qrammatik düzgünlük (40%), yazı isə mətnin strukturu (30%), xətaların sayı (30%) və məzmunun mövzuya uyğunluğu (40%) meyarları üzrə qiymətləndirilir; kredit üçün ümumi qiymətin ən azı 60% olması tələb olunur [Sillabus, 2026].

4. Akademik mobillik və müəllim mübadiləsi

BSU təcrübəsinin mühüm cəhəti tədrisə dil daşıyıcısı olan müəllimlərin cəlb edilməsidir. 2026-cı ildə birinci kurs tələbələrinə "İxtisas dilinin nitq vərdişi-I" və "İxtisas dilinin yazı vərdişi-I" fənlərini 15 fevral – 15 mart tarixlərində Urgənc Dövlət Pedaqoji İnstitutunun Özbək dili və ədəbiyyatı kafedrasının dosenti Maqsuda Şaripovna Cammatova, 1 aprel - 15 iyun tarixlərində isə Qo‘qon Universitetinin Özbək dili və ədəbiyyatı kafedrasının dosenti Müqəddəs Muhammadrahimovna Səidəkbərova tədris etmişdir. 14 sentyabr - 16 oktyabr tarixlərində ikinci kurs tələbələrinə II səviyyəli fənləri Qo‘qon Universitetinin dosenti Ramziya Jo‘rayeva keçir. Dil daşıyıcısı ilə canlı ünsiyyət tələbələrin tələffüzünü, dinləyib anlama bacarığını və dilə marağını gücləndirir.

Müəllim mübadiləsini tələbə mobilliyi tamamlayır. Nizami adına Özbəkistan Milli Pedaqoji Universitetindən 2 tələbə BSU-da, BSU-nun 1 tələbəsi isə həmin universitetdə təhsil alır. İxtisasın iki birinci kurs tələbəsi 2026-cı ilin 12-21 iyul tarixlərində Daşkənd və Səmərqənddə keçirilən "Özbək dili və mədəniyyəti" beynəlxalq yay məktəbində iştirak etmiş, BSU-nun Azərbaycanşünaslıq üzrə beynəlxalq yay məktəbinə isə Özbəkistan ali məktəblərindən tələbələr qatılmışdır. [AZƏRTAC, 2026].

Tədrisin davamlılığı üçün isə universitetin öz kadr potensialı vacibdir. Bu məqsədlə TDO‘TAU-da keçilən təcrübə proqramından sonra məqalə müəllifi ikinci semestrdən BSU-da özbək dilinin tədrisində bilavasitə iştirak edəcəkdir. Beləliklə, xarici mütəxəssislərin təcrübəsi yerli müəllim hazırlığı ilə birləşir.

5. Perspektivlər və təkliflər

Görülən işlər özbək dili tədrisinin növbəti mərhələsi üçün aşağıdakı istiqamətləri ön plana çıxarır:

– BSU üçün hazırlanmış tədris proqramı və dərs kitabının nəşri, onların TDO‘TAU mütəxəssislərinin elmi-metodik rəyi əsasında təkmilləşdirilməsi;

– Azərbaycan və özbək dillərinin müqayisəsinə əsaslanan qrammatik bələdçi, tematik lüğət və çalışmalar toplusunun birgə hazırlanması;

– audio, video və interaktiv çalışmalardan ibarət rəqəmsal resurs bazasının yaradılması;

– TDO‘TAU-da azərbaycanlı müəllimlər üçün ixtisasartırma kurslarının və təcrübə proqramlarının sistemli təşkili;

– memorandumun magistratura və doktorantura səviyyəsində əməkdaşlıq müddəalarının, iki dilin müqayisəli tədqiqinə dair birgə elmi layihələrin reallaşdırılması;

– tələbə mübadiləsinin və yay məktəblərinin miqyasının genişləndirilməsi;

– qarşılıqlılıq prinsipi əsasında Azərbaycan dilinin Özbəkistan universitetlərində tədrisinin inkişafı.

Bu addımlar özbək dilinin Azərbaycanda tədrisini başlanğıc təşəbbüsdən sabit akademik istiqamətə çevirə bilər.

Nəticə

Bakı Slavyan Universitetinin təcrübəsi göstərir ki, özbək dilinin xaricdə tədrisi möhkəm institusional əsas, tərəfdaş universitetlərlə sistemli əməkdaşlıq və müasir metodik yanaşma birləşdikdə nəticə verir. Qısa müddətdə özbək dili regionşünaslıq ixtisası üzrə davamlı ixtisas dilinə çevrilmiş, tələbə sayı 74 nəfərə çatmış, dörd dil bacarığını A1-B2 səviyyələrində inkişaf etdirən proqram və sillabuslar hazırlanmış, tədrisə Özbəkistandan müəllimlər cəlb olunmuş, tələbə və müəllim mobilliyi təmin edilmişdir.

Bu prosesdə TDO‘TAU ilə əməkdaşlıq tədrisin elmi-metodik bazasının möhkəmləndirilməsi və müəllim hazırlığı üçün əsas platformadır. İki dilin ortaq qədim türk kökləri isə müqayisəli yanaşmanı həm təbii, həm də səmərəli edir. Özbək dilini öyrənən hər bir azərbaycanlı tələbə iki qardaş xalq arasında mədəni körpüdür və bu körpülərin artması özbək dilinin beynəlxalq nüfuzunun yüksəlməsinə real töhfədir.

ƏDƏBİYYAT

1. Abdushukurov B. Qadimgi turkiy til: o‘quv qo‘llanma. – Toshkent: Alisher Navoiy nomidagi Toshkent davlat o‘zbek tili va adabiyoti universiteti, 2019.

2. Asilova G. O‘zbek tilini xorijiy til sifatida o‘qitishda autentik materiallarni tanlash tamoyillari // O‘zbekistonda xorijiy tillar. – 2023. – № 6 (53). – B. 172–185. – DOI: 10.36078/1703970114.

3. AZƏRTAC. BSU-da özbək dilinin tədrisinə maraq artır: yeni tədris ili üçün 45 yer proqnozlaşdırılır. – Bakı, 23.08.2026. – URL: https://azertag.az/xeber/bsu_da_ozbek_dilinin_tedrisine_maraq_artir_yeni_tedris_ili_uchun_45_yer_proqnozlasdirilir-4378277

4. Bakı Slavyan Universiteti və Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti arasında Qarşılıqlı Anlaşma Memorandumu. - Bakı - Daşkənd, 2026.

5. Bakı Slavyan Universiteti. "İxtisas (özbək) dilinin nitq vərdişi" və "İxtisas (özbək) dilinin yazı vərdişi" fənlərinin sillabusları (I–II kurs). – Bakı, 2026.

6. Jamolxonov H. Hozirgi o‘zbek adabiy tili. – Toshkent: Talqin, 2005.

7. O‘zbekiston Respublikasi Prezidentining 2020-yil 21-oktabrdagi "Mamlakatimizda o‘zbek tilini yanada rivojlantirish va til siyosatini takomillashtirish chora-tadbirlari to‘g‘risida"gi PF-6084-son Farmoni. – Toshkent, 2020.

8. Rixsiyeva G. O‘zbek tili (xorijliklar uchun darslik). – Toshkent: Akademnashr, 2023.

9. Sayfullayeva R.R., Mengliyev B.R., Boqiyeva G.H., Qurbonova M.M., Yunusova Z.Q., Abuzalova M.Q. Hozirgi o‘zbek adabiy tili. – Toshkent: Fan va texnologiya, 2010. – 404 b.

10. Council of Europe. Common European Framework of Reference for Languages: Learning, Teaching, Assessment. Companion Volume. - Strasbourg: Council of Europe Publishing, 2020.

11. Nunan D. Task-Based Language Teaching. – Cambridge: Cambridge University Press, 2004.

12. Richards J.C., Rodgers T.S. Approaches and Methods in Language Teaching. – 3rd ed. – Cambridge: Cambridge University Press, 2014.

MUNDARIJA

KIRISH SO‘ZI		
Sirojiddinov Sh.S.	O‘zbek tilining xalqaro nufuzini oshirish zarurati	**6**
I. O‘ZBEK TILINING JAHON TILLARI TIZIMIDAGI O‘RNI VA RIVOJLANISH TENDENSIYALARI		
Xolmanova Z.	O‘zbek tilining jahon tillari tizimidagi mavqeyini belgilashda lingvodidaktikaning o‘rni	**9**
Abdushukurov B.	Alisher Navoiy asarlaridagi qadimgi turkiy fe’llar semantikasi	**16**
Xudoyberdiyev J.	Mahmud Koshg‘ariy – singarmonizmning birinchi nazariyotchisi va ovrupolik olimlarning singarmonizm haqidagi xato qarashlari	**30**
Abdurahmanova M.	Alisher Navoiy merosi psixolingvistik talqinda	**45**
Xolmurodova M.	“Nasoyim ul-muhabbat” asaridagi tabobatga doir ayrim arabcha so‘zlar	**51**
O‘razova I.	Ot frazemalarning grammatik funksiyasi (Alisher Navoiy “Xamsa”sidagi frazemalar misolida)	**56**
Maxkamova D.	O‘zbek tili axborot-kommunikatsiya texnologiyalari	**60**

	terminologiyasi taraqqiyoti va tadqiqi	
Oripova M.	Sinestezik metaforalarda sezgilar interperatsiyasi	**66**
Muratova N.	Tilak va tabrik nutqiy aktlarida kommunikativ taktikaning tanlanish xususiyatlari	**72**
Abdullayeva G.	Folklor diskursida o‘xshatishlarning semantik-struktur va kognitiv tahlili	**78**
Xayrullayeva R.	Kichraytirish-erkalash shakllarining pragmatik ifodalanishi	**86**
Jumaniyozova Ch.	Sifat so‘z turkumida obyektiv va subyektiv belgilarning ifodalanishi	**90**
Abduvaliyeva K.	“Shajarayi turk” asaridagi ba’zi urug‘ nomlarining etnotoponim sifatidagi tahlili	**95**
Mullaboyeva Sh.	O‘zbek tilida o‘xshatishlar asosida estetik bahoning ifodalanishi	**107**
Mamadoliyeva M.	Graduallik kategoriyasining lingvistik tabiati va uning turdosh hodisalar bilan munosabati (Xayriddin Sultonov va Iqbol Mirzo asarlari misolida)	**115**
Mamarasulova M.	O‘zbek tili fonosemantik tahlilining fonologik asoslari	**130**
Siddiqova N.	O‘zbek xalq maqollaridagi eskirgan leksika: tarkibi,	**132**

	variantlanishi va lingvopoetik vazifalari	
Yusupova A.	Konseptlarning metaforik ifodalanishi va tahlil shakllari	**144**
O‘ralova N.	O‘zbek tilshunosligida parsellyatsiya hodisasi, uning sintaktik tavsifi va ega-kesim munosabatidagi o‘rni	**150**
Maxmudova M.	Kelishik kategoriyasining o‘rganilish tarixiga doir ayrim mulohazalar	**158**
Nurmatova S.	O‘zbek tilida rang ifodalovchi birliklarning lingvokognitiv strukturasi va konseptualizatsiya masalalari	**168**
Keldiyorova Z.	O‘zbek tilidagi shikoyat matnlarida nutqiy aktlarning ifodalanishi	**174**
Aliqulova Z.	Toponimlarning axborotni saqlash va uzatish xususiyatlari	**178**
Jurayeva Sh.	Hurmat kategoriyasining lisoniy birliklar bilan ifodalanishi	**183**
Karimova U.	Kultegin bitiktoshidagi xarakter-xususiyat bildiruvchi sifatlar tahlili	**188**
II. O‘ZBEK TILINI XALQARO MAYDONDA TARG‘IB QILISH STRATEGIYALARI		
Shamsiyeva M.	Peyzaj matnlari orqali turizmni rivojlantirish istiqbollari	**194**

Jo‘rayeva M.	Matnni tushunishda asar sarlavhasining ahamiyati	**201**
III. GLOBALLASHUV SHAROITIDA MILLIY TIL VA MADANIYATNI SAQLASH MASALALARI		
Ashirboyev S.	Adstrat sharoitidagi turkiy shevalarning o‘zaro ta’siri masalasi	**205**
Farhad Rahimi	Yakşı/ ĥoş, yap/ lap, ķop/ köp/ ĥob, appaķ/ pāk kelimeleri üzerine On the words yakşı/ ĥoş, yap/ lap, ķop/ köp/ ĥob, appaķ/ pāk	**210**
Xakimova M.	O‘zbek tilidagi metaforik konseptuallashtirishning milliy xususiyatlari	**232**
Abbozov O.	So‘x toponimlarining lingvomadaniy xususiyatlari	**238**
Komilova G.	O‘zbek tilida qadriyatlar tipologiyasining lingvistik verbalizatsiyasi	**245**
Xomidova M.	Zamonaviy o‘zbek badiiy matnlarida ertak elementlarining intertekstual xususiyatlari	**253**
Həsənzadə Səmra	Qrammatik metaforun türk dillərində reallaşması (özbək dilinin materiallari əsasinda)	**261**
Davronova Z.	Antroponimik freymlarda registrdan og‘ish fenomini (Cho‘lponning “Kecha va kunduz” romani misolida)	**272**

Tursinbayeva Sh.	Badiiy matnda onomastik birliklarning lingvomadaniy imkoniyatlari	**276**
Bekmuradova I.	O‘zbek tilidagi ijobiy fe’l-atvor leksemalarining semantik tasnifi	**283**
Imomova I.	Fitratning dramatik asarlarida maqollarning qo‘llanilishi va funksional-semantik xususiyatlari	**291**
Turgunboeva D.	Globallashuv sharoitida o‘zbek va ingliz lingvomadaniyatida miqdoriy me’yor	**297**
Amrullayeva M.	O‘zbek tilida inson xarakterini ifodalovchi frazemalarning semantik mikromaydonlari	**305**
Abdug‘afurova A.	Lingvomadaniy kodlarning poetik faollashuvi: Faxriyor va Ulug‘bek Hamdam she’riyati qiyosida	**312**
Muzaffarova Z.	Badiiy matnda qo‘llangan metaftonimik birliklarning kognitiv xususiyatlari	**322**
Jumayeva M.	Son komponentli lug‘aviy birliklarning lingvokulturologik tahlili	**327**
Xolmo‘minova H.	Frazemalarning lingvomadaniy tahlili	**333**
IV. O‘ZBEK TILINI O‘QITISHNING ZAMONAVIY METODLARI VA XORIJIY TAJRIBA		

Xusanova N.	Raqamli ta’lim muhitida o‘qish savodxonligi transformatsiyasi vositasida boshlang‘ich o‘quvchilarning kreativligini shakllantirish	**337**
Mamirova X.	Bolalarda ko‘p ma’noli so‘zlarni o‘zlashtirishning psixolingvistik mexanizmlari va til ta’limiga ta’siri	**344**
Arolova N.	Maktabgacha yoshdagi o‘zbek bolalari nutqida sintaktik tejamkorlik	**351**
Mirnosirova D.	Nutqiy ijod haqidagi nazariy qarashlar talqini	**356**
Nurboboyeva R.	Erta yoshdagi bolalar ta’limida adabiyotning tutgan o‘rni	**363**
Keldiboyeva M.	O‘zbek tili omonimlarini o‘zlashtirishda kontekst va assotsiatsiyaning psixolingvistik roli	**369**
V. TARJIMA VA LINGVOMADANIY ALOQALAR: XALQARO HAMKORLIKNING MUHIM OMILI SIFATIDA		
Mustafa Said Arslan	Türkiye türkçesi ve özbek türkçesi arasindaki yakinliğin öğretimdeki yansimalari: özbek türkçesi öğretiminde karşilaşilan sorunlar ve öneriler	**378**
Kalanova D.	O‘.Hoshimov “Dunyoning ishlari” asarining koreyscha tarjimasida milliy-madaniy realiyalarning berilishi	**389**

Muhammadiyeva D.	Ko‘p tilli parallel korpusning tarjima birliklarini qiyosiy o‘rganishdagi imkoniyatlari	**400**
Abbasova Ş.	Özbek Yazı Dili ve Azerbaycan Türkçesi'nin Ağızlarında Akrabalık Terimleri	**411**
Qarshiyev K.	Badiiy tarjimaning adabiy-estetik tafakkur evolyutsiyasiga ta’siri (Jamol Kamolning tarjimonlik faoliyati misolida)	**418**
Rahimova Z.	Parallel korpuslarning tarjimashunoslik va qiyosiy tilshunoslikdagi ilmiy ahamiyati	**428**
Bozorova S.	Rus tilidagi ayrim gippologik birliklar tadqiqiga doir	**433**
Axmedova N.	O‘zbek va ingliz tillarida ruhiy holat birliklarining semantik farqlari va kontekstual tarjimasi	**442**
Davlatova R.	Sun’iy intellekt asrida inson nutqi, tilni idrok etish va psixolingvistik jarayonlar	**448**
Turdiyeva R.	Ingliz, qoraqalpoq va o‘zbek tillaridagi maqollarda zoonimlarning lingvokognitiv tahlili (“bo‘ri” misolida)	**462**
Ataniyazova S.	O‘zbek va ingliz tillarida mayl, zamon va modallikning muloqot xulqidagi funksional-uslubiy imkoniyatlari	**466**
Sayfiyeva K.	O‘zbek va ingliz fitonim komponentli maqollarida inson	**472**

	konseptining kognitiv metaforik modellari	
Tillayeva O.	O‘zbek va turk maqollarida erkak konseptining semantik maydoni	**485**
Musurmankova Sh., **Abdullayeva D.**	“Ikki eshik orasi” romanidagi murojaat birliklarining lingvomadaniy xususiyatlari va tarjima muammolari	**495**
Abdullayeva M.	Ingliz va o‘zbek maqollarida nutqiy antonimiyaning lingvokognitiv xususiyatlari	**502**
VI. AXBOROT TEXNOLOGIYALARI VA RAQAMLI MUHITDA O‘ZBEK TILINING RIVOJI		
Abjalova M.	O‘zbek tili multikorpusida aksentologik korpus va uning ahamiyati	**513**
Elova D.	O‘zbek normativ-huquqiy matnlarini lingvo-mantiqiy annotatsiyalash mezonlari	**524**
Kasimova Z.	O‘zbek tili iboralar korpusini yaratishning lingvistik va kompyuter asoslari	**534**
Nurullayeva O.	Barqaror birikmalar resurslari va parallel korpus uchun baza tuzish mezonlari	**542**
Musulmonova K.	Lingvistik ekspertologiyada matn identifikatsiyasi bo’yicha ekspert xulosalarini shakllantirishning nazariy va amaliy asoslari	**550**

Umarova Sh.	Kollokatsiyalarni korpus asosida aniqlashning nazariy va metodologik asoslari	**556**
Akramdjanova M.	Parallel korpusning madaniyatlararo kommunikatsiyadagi o‘rni	**564**
Buronova R.	Raqamli muhitda o‘zbek tilidagi neologizmlarning shakllanishi	**570**
Shodmonaliyeva Y.	Sentiment tahlilda tasdiq-inkor emojlarining diskursiv va pragmatik funksiyalari	**576**
Rayimjonova M.	Rauf Parfi she’riyatining leksik-statistik xususiyatlari	**591**
VII. XALQARO TA’LIM DASTURLARI VA O‘ZBEK TILI: IMKONIYAT VA ISTIQBOLLAR		
Mirzəli Məleykə	Azərbaycanda özbək dilinin tədrisi: təcrübə və perspektivlər (bakı slavyan universitetinin timsalında)	**595**
Iskandarova G.	O‘zbek tilini ikkinchi til sifatida o‘rganishda so‘z ma’nolarini o‘zlashtirish	**603**
VIII. O‘ZBEK TILI VA DIPLOMATIYA: XALQARO MUNOSABATLARDA TILNING O‘RNI		
Темирова Б., **Темирова М.**	Кыргыз, өзбек тилдери жана алардын адабий-маданий байланыштардагы ролу	**610**

Nazarov Q.	O‘zbek diplomatik diskursida metaforalarning kommunikativ-pragmatik xususiyatlari	**620**
IX. ILMIY TADQIQOTLAR VA LINGVISTIKADA XALQARO HAMKORLIK MASALALARI		
Berdak Yusuf	O‘zbek tilining shakllanish jarayoni va eski o‘zbek tili terminlari	**626**
Qurbonova M.	Xarizmatik nutq haqidagi nazariy qarashlar talqini	**632**
Umurzoqova M.	Erkin A’zam asarlarida lisoniy shaxs tiplari	**640**
Mirzaali Malika	O‘zbek tılının mavsumıy marosımlar leksıkasıda turkıy areal mavqeyı	**646**
Məmmədova A.	Xarəzm Türkcəsində Və Müasir Özbək Dilində Qohumluq Terminlərində Cins Kateqoriyasinin İfadəsi	**661**
Tuxtasinova M.	L.Z.Budagov lug‘atidagi umumturkiy leksik fond: “tur.” pometali leksemalarning tarixiy-qiyosiy tahlili	**670**
Abdullayeva S.	So‘z yasalishını qıyosıy-tıpologık tadqıq etısh metodologıyası va tahlıl mezonları	**681**
Xasanova G.	Kinesikaning lingvistik tadqiqi: shakllanish tarixi va kommunikativ funksiyalari	**688**

Rajabov N.	O‘zbek tilida ng fonemasining talaffuzi, imlosi va tarixiy taraqqiyoti	**695**
Mirzayeva G.	O‘zbek tilida tovush o‘zgarishlarining neyrolingvistik asoslari	**699**
Arislanova M.	She’riy matnning konseptual tizimi va lingvokognitiv xususiyatlari (Erkin Vohidov ijodi misolida)	**706**
Muhammadiyeva M.	“Shum Bola” qissasidagi ba’zi polisemantik leksemalar tahlili	**717**
Abdullayev G‘.	Fitrat she’riyatidagi turkiy so‘zlarning emotsional-ekspressiv xususiyatlari	**722**
Tursunova S.	Ironiyada implikatura fenomeni va yashirin ma’no mexanizmlari	**726**
Turobova N.	Badiiy diskursda morfologik vositalarning pragmatik xususiyatlari	**737**
Utegenova O‘.	O‘zbek tilida tasviriy ifodalarning badiiy matnda qo‘llanilishi	**744**
Komilova G.	Tarixiy-badiiy matnlar korpuslarini yaratish zarurati va ularni semantik modellashtirish masalalari	**749**
Haydaraliyeva Sh., Mo‘minova M.	O‘zbek tili leksikasining taraqqiyot tamoyillari va semema tushunchasi	**759**

Axmedova M.	Diskurs tushunchasining lingvistik talqini: nazariy yondashuv va ilmiy qarashlar	**768**
Komilova Sh.	Lingvokultrologiyada evfemizm va milliy mentalitet: ayollar nutqi misolida nazariy talqinlar	**774**
Suyunova D.	“Boburnoma” dagi leksik qatlamlarning “Boburiynoma”da badiiy qayta faollashuvi: leksik-semantik va funksional-uslubiy tahlil	**780**
Maqsudaliyeva Y.	Lingvistik ekspertiza va lingvokriminalistik tahlil: nazariya va amaliyot	**786**
Abdurasulova D.	O‘zbek qizlari nutqidagi neonim va slenglarning pragmalingvistik tadqiqi	**792**
Majidova M.	Tibbiy soha rahbarlari kinesik nutqining lingvosomatik tadqiqi	**797**
Abdullayeva I.	Gender qadriyatlarning aksiolingvistik tahlili	**802**
X. O‘ZBEK TILINING OMMAVIY AXBOROT VOSITALARI VA MEDIA MAKONIDAGI O‘RNI		
Saydaliyeva M.	Kinodiskurs multimediali muloqot tizimi sifatida	**809**
Otaxonova S.	Mediamatnlarda antroponimlarning pragmatik imkoniyatlari	**813**